Ədalət.- 2023.- 11 fevral.- S.8.



*İbrahim Yusifoğlu*

# Dərdinə şərikdi, can Azərbaycan

Dünya bələnibdi haraya, küyə,
Tanrı bəlasından yaman haldasan.
Namərdlər önündə, şanlı Türkiyə,
Sən daha qürurlu dayanmalısan.

Yenə el-obanın nəzəri səndə,
Qorxunc zəlzələdən qəm biçimdəsən.
Bu çətin anında, doğma Türkiyə,
Əzablı, kədərli, qəm içindəsən.

Bu da bir yazıdı, tale yazısı,
Gələndə sərt gəlir, bilinə bilmir.
Ağrısı ağırdı bir ömür boyu,
O ağrı ürəkdən silinə bilmir.

Uşaq gülüşünü, körpə səsini
Daşlar zədələyib, yox edə bilmir.
Onların düşdüyü darısqallığa,
Ölümün özü də heç \gedə bilmir.

Halını seyr etmək acıdan-acı,
Dəhşətli görünür qoynunda hər yan.
Gözlərin işığı, başların tacı,
Dərdinə şərikdi can Azərbaycan!

Səni belə dərdlər çətin ki, əyə,
Tanrı bəlasından yaxşı halısan.
Namərdlər önündə, Ana Türkiyə,
Sən daha qürurlu dayanmalısan!

08.02.2023